# ATMU-nun 2022-2026-ci illər üçün Strategiyası

## Strategiyanın hissələri


2018-2021-ci illərdə ATMU-da həyata keçirilmiş strateji fəaliyyətlərinin icmalı 3

RƏHBƏR SİYASƏT 5

Missiya və hədəfimiz 5

Keyfiyyət təminatı dəyərləri 5

Strateji məqsədlərin qısa təsviri 6

Strateji məqsədlər arasında əlaqənin sxem təsviri 6

Strateji məqsədlər 6

MƏQSƏD 1. ATMU-da idarəetmənin səmərəliliyinin yüksəldilməsi 7

MƏQSƏD 2. Yüksək kvalifikasiyalı kadr potensialının formalaşdırılması 7

MƏQSƏD 3. Təhsilin məzmununun müasirləşdirilməsi 9

MƏQSƏD 4. Tələbələrin təhsil aldıqları ixtisas proqramı üzrə mənimsəmə səviyyəsinin yüksəldilməsi 10

MƏQSƏD 5. Zəruri maddi-texniki bazanın və infrastrukturun yaradılması 10

MƏQSƏD 6. Elmi-tədqiqat və innovasiya potensialının gücləndirilməsi 11

MƏQSƏD 7. Rəqəmsal transformasiya 12

MƏQSƏD 8. Ali təhsilin beynəlmiləlləşməsi 13

MƏQSƏD 9. Ömürboyu təhsil prinsipi əsasında universitetin təhsil xidmətlərinin diversifikasiyası 14

MƏQSƏD 10. Uzunmüddətli maliyyə dayanıqlılığının möhkəmləndirilməsi 15

MƏQSƏD 11. Universitetin ortaq vizyona və dəyərlərə əsaslanan brendinin yaradılması 15

MƏQSƏD 12. Maraqlı tərəflərlə məhsuldar əməkdaşlıqların qurulması 16

**2018-2021-ci illərdə ATMU-da həyata keçirilmiş strateji fəaliyyətlərinin icmalı**

2018-ci ilin yazında ATMU AR Dövlət Turizm Agentliyinin tabeçiliyinə keçdikdən sonra qısa müddət ərzində universitetin institusional ehtiyacları qiymətləndirilmiş, onun fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədilə qısamüddətli strategiya və müvafiq fəaliyyət planı hazırlanmışdır. Bəhs olunan fəaliyyətlər nəticəsində ATMU bir sıra nailiyyətlər əldə etmişdir.

İlk növbədə, universitet tədris və qiymətləndirmə prosesinin şəffaflığına risk yaradan amilləri müəyyən etmiş və onların aradan qaldırılması üçün müvafiq tədbirlər görmüşdür. Bu tədbirlərin səmərəliliyini artırmaq üçün bir sıra kadr dəyişiklikləri həyata keçirilmiş, imtahanların təşkilinə nəzarət prosesi təkmilləşdirilmişdir.

İkinci prioritet istiqamət kimi ATMU-da təhsilin məzmununun yaxşılaşdırılması məqsədilə bir sıra fəaliyyətlər həyata keçirilmişdir. ATMU bakalavriat səviyyəsində “Turizm işinin təşkili” və “Turizm bələdçiliyi” ixtisasları üzrə dövlət proqramlarının hazırlanmasına fəal töhfə vermişdir. Universitet beynəlxalq ali təhsil müəssisələrinin təcrübəsini və əmək bazarının dəyişən tələblərini nəzərə alaraq təhsil proqramlarının yenidən hazırlanmasında iştirak etmişdir. Təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində ATMU-nun əldə etdiyi digər əhəmiyyətli nailiyyət isə universitetin turizm təhsili proqramlarının Ümumdünya Turizm Təşkilatının nüfuzlu TedQual və ISO 9001:2015 – Keyfiyyət İdartəetmə Sistemi auditlərindən uğurla keçməsi olmuşdur.

Üçüncü istiqamət kimi, universitetin kadr potensialının gücləndirilməsi əsas hədəflər sırasında olmuşdur. Akademik heyətin işə qəbul prosedurları hazırlanmış, 2020/2021-ci və 2021/2022-ci tədris illəri üzrə professor-müəllim heyətinin işə qəbul prosesi müsabiqə yolu ilə təşkil edilmişdir. Müsabiqələrin keçirilməsində əsas məqsəd yüksək kvalifikasiyalı akademiya və sənaye nümayəndələrinin universitetdə tədris prosesinə cəlb edilməsi olmuşdur.

ATMU-da həyata keçirilmiş dəyişikliklərin əhəmiyyətli bir hissəsi AR Dövlət Turizm Agentliyinin dəstəyi və BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilmiş “Azərbaycan Turizm və Menecment Universitetinin potensialının artırılması” layihəsi çərçivəsində baş tutmuşdur. Yuxarıda qeyd olunmuş beynəlxalq sertifikasiya auditlərinin keçirilməsi ilə yanaşı, layihə çərçivəsində ATMU-da tədris, öyrənmə və qiymətləndirmənin keyfiyyətinin yüksəldilməsi məqsədilə təlimat hazırlanmış, universitetin müvafiq inzibati və akademik heyət üzvlərinə türkiyəli mütəxəssis tərəfindən təlimlər keçilmişdir. Bəhs olunan layihə fəaliyyətlərinin bir hissəsi kimi ATMU-nun vebsaytı yenidən qurulmuş, universitetdə tədris proseslərinin avtomatlaşdırılması məqsədilə “EduMan” təhsil idarəetmə sisteminin baza versiyası işə salınmışdır. Bundan başqa, ATMU-nun tədris vasitələrinə olan ehtiyacının qarşılanması məqsədilə bir sıra beynəlxalq nəşrlər alınaraq universitet kitabxana fonduna daxil edilmişdir.

Digər istiqamət kimi, universitetin sənaye ilə əlaqələri daha da gücləndirilmiş, ATMU tələbələrinin beynəlxalq və yerli tərəfdaş müəssisələrdə uzunmüddətli istehsalat təcrübələrinin təşkili prosesi uğurla davam etdirilmişdir.

ATMU-nun “Azərbaycan Universitetlərində Keyfiyyətə Təminat Mərkəzlərinin Yaradılması və İnkişaf Etdirilməsi (EQAC)” adlı Erasmus+ layihəsində fəal iştirakı universitetdə keyfiyyət təminatı sisteminin formalaşmasına əvəzsiz töhfə vermişdir. Keyfiyyət

təminatı sahəsində Avropa universitetlərinin təcrübəsinin öyrənilərək ATMU-da tətbiq edilməsi, beynəlxalq və yerli tərəfdaşlarla davamlı bilik mübadiləsi imkanları ATMU-da idarəetmə, tədris, öyrənmə və qiymətləndirməyə yanaşmaların dəyişməsinə, müasir təhsil standartlarına yaxınlaşdırılmasına kömək etmişdir.

Ötən müddət ərzində, ATMU-nun beynəlxalq təhsil tərəfdaşlıqları da uğurla icra olunmuşdur. AR Dövlət Turizm Agentliyinin fəal dəstəyi sayəsində universitetin IMC Krems Tətbiqi Elmlər Universiteti ilə "Turizm və asudə vaxtın idarə edilməsi" ixtisası üzrə həyata keçirdiyi flaqman ikili diplom proqramının maliyyələşdirilməsi davam etdirilmiş, Avropa İttifaqı və Türkiyədə fəaliyyət göstərən tərəfdaş universitetlərlə tələbə və əməkdaş mübadiləsi proqramları uğurla icra edilmişdir.

Əldə edilmiş nailiyyətlərə baxmayaraq, ATMU-nun müasir təhsil standartlarına cavab verən ali təhsil müəssisəsinə çevrilməsi, yerli və regional ali təhsil bazarlarında rəqabət qabiliyyətini artırması üçün uzunmüddətli strateji dəyişikliklərin həyata keçirilməsi labüddür. Bu dəyişikliklər universitetin kampusunun yaradılmasından onun maliyyə mənbələrinin diversifikasiyasına, idarəetmə islahatlarının həyata keçirilməsindən təhsilin keyfiyyətinin yüksəldilməsinə, çevik və səmərəli kadr siyasətinin formalaşdırılmasından tələbə yönümlü təhsilə keçidin sürətləndirilməsinə, rəqəmsal texnologiyaların tətbiqinin intensivləşdirilməsindən universitetin tədqiqat potensialının gücləndirilməsinədək geniş spektri əhatə etməlidir. Sənədin qalan hissəsində sözügedən institusional ehtiyacların məzmunu daha geniş işıqlandırılmış və müvafiq fəaliyyət istiqamətləri göstərilmişdir.

# RƏHBƏR SİYASƏT

## Missiya və hədəfimiz

***Missiyamız*** ATMU-nu beynəlxalq əmək bazarında rəqabət qabiliyyətli və cəmiyyətin dayanıqlı inkişafına töhfə verəcək mütəxəssislər hazırlayan ali təhsil müəssisəsinə çevirmək.

***Hədəfimiz*** missiyaya uyğun olaraq fərdlərə öyrənmək, dəyişmək və dəyişdirmək üçün zəruri səriştələri aşılayan təhsil, innovasiya və tədqiqat mərkəzi kimi formalaşmaq.

***Strateji baxışımız (vizyon)*** ATMU-nun beynəlxalq səviyyədə rəqabət qabiliyyətli ali təhsil müəssisəsinə çevrilmək, xüsusilə turizm və menecment sahəsində təhsil, təlim və araşdırma üzrə regionumuzun və dünyanın qabaqcıl ali təhsil müəssisələri arasında yer tutmaq, ölkəmizin milli dəyərlərə malik və beynəlxalq standartlara cavab verən kadr potensialının mütəmadi gücləndirilməsi prosesinə töhfə vermək; bu məqsədlərə nail olunması üçün mütəmadi olaraq ATMU-nun maddi-texniki bazanın təkmilləşdirilmək, mövcud əməkdaşların bilik və bacarıqlarının yüksəltmək, eləcə də heyətdə təhsil və araşdırma sahəsində mütərəqqi beynəlxalq təcrübəyə malik mütəxəssislərin sayını artırmaq və beynəlxalq əməkdaşlığı fasiləsiz olaraq genişləndirmək.

## Keyfiyyət təminatı dəyərləri

*Biz inanırıq ki, qarşımıza qoyduğumuz hədəfə çatmağımız və missiyamızı uğurla yerinə yetirməyimiz üçün heyət üzvlərimiz, tələbələrimiz və digər maraqlı tərəflərimiz aşağıdakı dəyərlərə sadiq qalmalıdır:*

- **Sosial məsuliyyət** – universitetin cəmiyyətin ədalətli inkişafına töhfəsi diqqət mərkəzində saxlanılmalıdır.
- **Dürüstlük** – şəxsi davranışımız və peşəkar fəaliyyətimiz ən yüksək etik standartlara cavab verməlidir.
- **Şəffaflıq** – missiyamızın ictimai əhəmiyyəti nəzərə alınaraq fəaliyyətimizdə aşkarlıq təmin olunmalıdır.
- **Rasionallıq** – qərarlar verilərkən onların məntiqiliyi, ardıcıllığı və məqsədyönlülüyü təmin edilməlidir.
- **Hesabatlılıq** – verilmiş qərarların nəticələrinin səmərəliliyi mütəmadi təftiş olunmalıdır.
- **Akademik azadlıq** - universitetdə konvensional baxışları tənqid və təftiş etməyə imkan verən sərbəst fikir mübadiləsi mühiti qorunub-saxlanılmadır.
- **Biliyə maraq** – fərdlərdə intellektual axtarış və müstəqil öyrənmə həvəsini formalaşdıran mühit yaradılmalıdır.
- **Yenilikçilik** – təhsil, tədqiqat və digər əlaqədar sahələrdə yenilikçi yanaşmaların, texnoloji nailiyyətlərin fəal istifadəsi təşviq edilməlidir.

## Strateji məqsədlərin qısa təsviri

| | | |
|---|---|---|
| **Səmərəli idarəetmə** - universitetdə qərarvermə prosesinin nəticəyönümlülüyünün və çevikliyinin artırılması | **Maddi-texniki baza** - Zəruri maddi-texniki bazanın və infrastrukturun təkmilləşdirilməsi | **Təhsilin diversifikasiyası** - mövcud təhsil imkanlarının genişləndirilməsi |
| **İnsan resursları siyasəti** - yüksək kvalifikasiyalı kadr potensialının formalaşdırılması | **Tədqiqat və inkişaf** - elmi-tədqiqat potensialının və innovasiya mədəniyyətinin inkişaf etdirilməsi | **Maliyyə dayanıqlılığı** - maliyyələşmə mənbələrinin artırılması və xərclərin optimallaşdırılması |
| **Təhsilin məzmunu** - təhsilin məzmununun və çatdırılması üsullarının innovativliyi | **Rəqəmsal transformasiya** - rəqəmsal infrastrukturun və bacarıqların formalaşdırılması | **Brendləşmə** - universitetin tanınmasına xidmət edən təhsil sisteminin formalaşdırılması və marketinq tədbirlərinin icrası |
| **Tələbə nailiyyəti** - rəqabətqabiliyyətli mütəxəssis kimi formalaşması | **Beynəlmiləlləşmə** - təhsil, tədqiqat və digər fəaliyyətlər üzrə beynəlxalq əməkdaşlığın genişləndirilməsi | **Maraqlı tərəflərlə iş** - əsas maraqlı tərəflər ilə tərəfdaşlıqların dərinləşdirilməsi |

## Strateji məqsədlər arasında əlaqənin sxem təsviri

| **İlkin resurs bazası**<br>*(universitetin institusionallaşması üçün qarşılanmalı olan baza ehtiyaclar)* | **Transformativ imkanlar**<br>*(universitetin rəqabət üstünlüyü qazanması üçün inkişaf etdirilməli olan sahələr)* | **Yekun hədəf**<br>*(ilkin resurs bazası formalaşdıraraq və transformativ imkanlardan bəhrələnərək çatmaq istədiyimiz mövqe)* |
|---|---|---|
| - Səmərəli idarəetmə<br>- Zəruri maddi-texniki baza<br>- Səriştəli kadr potensialı<br>- Təhsilin məzmununun müasirliyi<br>- Maliyyə dayanıqlılığı | - Tələbə-mərkəzli təhsil<br>- Tədqiqat və inkişaf<br>- Təhsilin diversifikasiyası<br>- Rəqəmsal transformasiya<br>- Beynəlmiləlləşmə<br>- Brendinq<br>- Maraqlı tərəflərlə iş | - Regionun qabaqcıl təhsil, innovasiya və tədqiqat mərkəzinə çevrilmək |

## Strateji məqsədlər

Strateji məqsədlərin məzmunu aşağıdakı suallara cavab verilərək hazırlanmışdır:

| Kateqoriya | Sual |
|---|---|
| *Məqsəd* | Nə əldə etmək istəyirik? |
| *Niyyət* | Nə üçün əldə etmək istəyirik? |
| *Strategiyalar* | Necə əldə etmək istəyirik? |
| *Göstərici* | Uğuru necə ölçəcəyik? |

## MƏQSƏD 1. ATMU-da idarəetmənin səmərəliliyinin yüksəldilməsi

**Niyyət –** Strategiyanın icrası ilk növbədə universitetin idarəeolunması ilə əlaqədar qaydaların səmərəliliyinin artırılmasını, təşkilatdaxili strukturun optimallaşdırılmasını, ən əsası isə müəssisədə keyfiyyət təminatı sisteminin formalaşdırılmasını tələb edir. Bəhs olunan tədbirlər yeni fəaliyyət normaların yaradılması və davranış dəyişikliyinin təşviq edilməsi üçün müstəsna əhəmiyyət kəsb edir. Bu məqsədin səmərəli icrası digər bütün strateji məqsədlərin effektiv şəkildə həyata keçirilməsinə töhfə verdiyi kimi, digər məqsədlərin icrası da universitetdə idarəetmənin səmərəliliyinin yüksəldilməsinə bu və ya digər dərəcədə təsir edəcəkdir.

**Strategiyalar:**

- Universitetin uzunmüddətli strateji inkişafını təmin etməyə imkan verən təşkilati strukturun formalaşdırılması
- ATMU-nun (o cümlədən, onun struktur bölmələrinin) fəaliyyətini tənzimləyən daxili qaydaların sistemləşdirilməsi və məzmun keyfiyyətinin artırılması
- Universitetdə keyfiyyət təminatı sisteminin formalaşdırılması
- Tələbə, professor-müəllim heyəti və digər maraqlı tərəflərin məmnuniyyət səviyyəsinin yüksəldilməsi
- Qərarvermə, o cümlədən resursların bölgüsünün strateji planlaşdırmaya uyğun aparılması
- Tələbə təmsilçiliyi institutlarının təkmilləşdirilməsi
- Keyfiyyət təminatı siyasətin hazırlanması

**Uğurun göstəricisi:**

- Təşkilatı struktur
- Keyfiyyət təminatı sistemi
- Təşkilatdaxili qaydalar və təlimatlar
- Təşkilatdaxili proseslər
- Tələbə təcrübəsi
- Heyət üzvləri və maraqlı tərəflərin məmnunluq səviyyəsi

## MƏQSƏD 2. Yüksək kvalifikasiyalı kadr potensialının formalaşdırılması

**Niyyət –** Təhsil müəssisəsində xidmətin keyfiyyəti ilk növbədə heyətin peşəkarlıq səviyyəsindən və müəssisənin missiyasına verdiyi töhfədən asılıdır. Təhsil müəssisələri arasında rəqabətin artdığı müasir şəraitdə yüksək ixtisaslı kadr bazasını formalaşdırmaq və saxlamaq üçün məqsədyönlü kadr siyasəti tələb olunur. Müəssisədə işə qəbul qaydalarının obyektivliyindən

performansın qiymətləndirilməsi prosesinin səmərəliliyinədək, əmək haqqı siyasətinin cəlbediciliyindən iş mühitinin rahatlığınadək bir çox amil bu siyasəti formalaşdırarkən nəzərə alınmalıdır.

**Strategiyalar:**

- İşçilərin işə qəbulu, vəzifə üzrə irəliləməsi və ixtisasartırma ehtiyaclarını qarşılamağa imkan verən səmərəli insan resursları siyasətinin hazırlanması
- Nüfuzlu ali təhsil müəssisələrində təhsil almış, təcrübəli sənaye nümayəndələrinin universitet fəaliyyətinə cəlb olunması
- Vəzifə təlimatlarının yenilənməsi, müvafiq struktur bölmələri və işçilər arasında vəzifə və səlahiyyətlərin səmərəli bölünməsi
- Heyət üzvlərinin motivasiyasını yüksəltməyə yönəlik performans əsaslı əmək haqqı sisteminin formalaşdırılması (o cümlədən, elmi dərəcə və elmi ad əldə edilməsi prosesinin sürətləndirilməsi üçün müvafiq təşviq xarakterli tədbirlərin görülməsi)
- Heyət üzvlərinin peşə hazırlığının mütəmadi olaraq ixtisasartırma kursları və təlim proqramları vasitəsilə yüksəldirilməsi, o cümlədən:

  - elmi-tədqiqat fəaliyyətinin keyfiyyətinin artırılması
  - tədrisin məzmunu, təlim və qiymətləndirmə strategiyaları sahəsində səriştələrinin təkmilləşdirilməsi
  - xarici dil səriştələrinin və yumşaq bacarıqların gücləndirilməsi
  - rəqəmsal texnologiyalardan istifadə bacarıqlarının artırılması.

- Heyət üzvlərinin sosial-iqtisadi və psixoloji rifahını yüksətməyə yönəlmiş təminat (və ya dəstək) sisteminin formalaşdırılması
- Dərs yüklərinin balanslı bölgüsünün təmin edilməsi (o cümlədən, bir akademik heyət üzvünə düşən aktiv dərs yükünün optimallaşdırılması)

**Uğurun göstəricisi:**

- ATMU-nun ştatında olan akademik heyət üzvləri arasında (1) elmi dərəcəsi/elmi adı olan (2) nüfuzlu ali təhsil müəssisələrində təhsil almış, (3) sənaye təcrübəsi olan mütəxəssislərin payı
- Xarici dilləri və xarici dillərdə tədris edən akademik heyət üzvləri arasında beynəlxalq sertifikasiyadan keçmiş mütəxəssislərin payı
- İnzibati və akademik heyət üzvlərinin xarici dil biliyi səviyyəsi
- Müvafiq rəqəmsal səriştələrə yiyələnmiş akademik heyət üzvlərinin sayı

## MƏQSƏD 3. Təhsilin məzmununun müasirləşdirilməsi

**Niyyət –** Təhsilin məzmunu tələbələrin şəxsi və peşəkar transformasiyasına imkan verməli, onlara layiqli vətəndaş və peşəkar mütəxəssis kimi yetişmələri üçün tələb olunan səriştə və dəyərləri aşılamalıdır. Təhsilin məzmunu müasir inellektual meyllərə uyğun olaraq mütəmadi yenilənməli, beynəlxalq və yerli əmək bazarının dəyişən gözləntilərinə və ehtiyaclarına cavab verməlidir. Biliyin yaradılması prosesi əsas maraqlı tərəflərin – təhsilalanların, tədqiqatçıların, işəgötürənlərin və təhsilverənlərin müntəzəm əməkdaşlığına, qarşılıqlı fikir və təcrübə mübadiləsinə əsaslanmalıdır. Tələbəyə müstəqil öyrənmə səriştələri aşılayan təlim üsulları və yanaşmalarının tətbiqi genişləndirilməlidir.

**Strategiyalar:**

- Mövcud ixtisaslar üzrə ali təhsil proqramlarının məzmununun beynəlxalq təcrübə və əmək bazarının tələbləri nəzərə alınmaqla müntəzəm qaydada yenilənməsi
- Universitetin strateji inkişaf məqsədləri ilə uzlaşan və əmək bazarının dəyişən ehtiyaclarını qarşılamağa imkan verən yeni ixtisasların təşkili
- “Gələcəyin səriştələri”[1] kimi bilinən, beynəlxalq əmək bazarında sürətlə aktuallıq qazanan yüksək əqli, texnoloji, sosial və emosional bacarıqların mövcud təhsil proqramlarına inteqrasiya edilməsi
- Təhsil proqramlarının keyfiyyətinin artırılması
- Xarici və yerli mütəxəssislərin həmmüəllifliyi ilə yeni tədris-metodik vəsaitlərin, təlim resurslarının hazırlanması və onların məzmununun davamlı təkmilləşdirilməsi
- Nüfuzlu beynəlxalq  nəşrlərin Azərbaycan dilinə tərcümə olunması
- Tədris, təlim və qiymətləndirmə üzrə qabaqcıl təcrübələri öyrənən yeni pedaqoji yanaşmaların müəssisə daxilində tətbiqini və yayılmasını sürətləndirmək
- Kitabxana fondunun tədris prosesinin ehtiyacları nəzərə alınmaqla yenilənməsi
- Beynəlxalq elmi bazalara çıxışın təmin edilməsi və istifadənin təşviq olunması

**Uğurun göstəricisi:**

- Proqrama daxil olan ixtisas-peşə hazırlığı fənlərinin məzmunu və onların mənimsəmə nəticələri
- Məzmunu yenilənmiş fənn proqramları, sillabuslar
- Nəşr olunmuş metodiki-vəsait və digər təlim resursları

[1] Bəhs olunan səriştələr haqqında daha ətraflı məlumat əldə etmək üçün bu keçidə daxil olun: https://www.mckinsey.com/industries/public-and-social-sector/our-insights/defining-the-skills-citizens-will-need-in-the-future-world-of-work

## MƏQSƏD 4. Tələbələrin təhsil aldıqları ixtisas proqramı üzrə mənimsəmə səviyyəsinin yüksəldilməsi

**Niyyət –** Tələbənin ixtisaslı kadr kimi əmək bazarında uğur qazana bilməsi üçün o ilk növbədə təhsil aldığı müvafiq ixtisas üzrə proqramın məzmununa tam yiyələnməlidir. Məzun olanadək tələbənin ixtisas üzrə hazırlıq səviyyəsi onun ayrı-ayrı fənlər üzrə əldə etdiyi akademik nəticələrə görə müəyyən olunur. Təhsilverənlər təhsil prosesinin keyfiyyətinə xələl gətirmədən tələbələrin akademik göstəricilərinin yüksəldilməsinə çalışmalıdır.

**Strategiyalar:**

- ATMU-ya istedadlı, yüksək motivasiyalı və təhsil göstəriciləri yuxarı olan abituriyentlərin cəlb edilməsi
- Tələbə nəticələrinin semestr boyunca monitorinqinin aparılması, nəticələrin təhlil olunması və zəif nəticə göstərən tələbələrə semestr müddətində müvafiq metodiki dəstəyin göstərilməsi
- Yüksək və aşağı təhsil göstəriciləri olan tələbələr arasındakı nailiyyət fərqinin azaldılması
- Tələbələrin akademik nailiyyətinin yüksəldilməsi üçün müxtəlif təşviq üsullarının tətbiq olunması
- Mövcud tədris, öyrənmə və qiymətləndirmə yanaşmalarının təkmilləşdirilməsi
- Akademik məsləhət (tyutor) xidmətlərinin təkmilləşdirilməsi
- Tələbələrə davamlı və keyfiyyətli psixoloji dəstəyin göstərilməsi

**Uğurun göstəricisi:**

- Tələbələrin Ümumi Orta Müvəffəqiyyət Göstəricisi
- Tələbə məmnuniyyəti (dövri olaraq aparılan sorğular və digər qiymətləndirmə üsulları vasitəsilə tələbələrin xidmətdən razılıq səviyyəsinin ölçülməsi nəzərdə tutulur)
- Məzunların məşğulluq səviyyəsi

## MƏQSƏD 5. Zəruri maddi-texniki bazanın və infrastrukturun yaradılması

**Niyyət –** ATMU-nun mövcud tədris binalarının otaq sayı və tutumu məhdud olmaqla yanaşı, binaların təyinatı və quruluşunda mövcud olan problemlər onların istifadəsinə ciddi əngəllər yaradır. Heyətin və tələbələrin rahatlığını təmin edən, təhsil müəssisəsinin strateji məqsədlərinin icrasına, maraqlı tərəflərin icmalaşmasına imkan verən təhsil infrastrukturunun qurulması onun uzunmüddətli mövcudluğu üçün həlledici əhəmiyyət daşıyır. ATMU-nun “qabaqcıl təhsil, innovasiya və tədqiqat qovşağına” çevrilmək ambisiyası mövcud infrastrukturun əsaslı şəkildə planlaşdırılmasını və yenidən qurulmasını tələb edir.

**Strategiyalar:**

- Mövcud ehtiyaclar və kampusla bağlı beynəlxalq standartların tələbləri nəzərə alınmaqla kampusun yaradılması
- Müxtəlif maliyyələşmə alətlərindən istifadə edilərək mövcud infrastrukturun mərhələli şəkildə yenilənməsi
- Təhsil müddətində yataqxanaya ehtiyacı olan universitet tələbələrinin yerləşdirilməsi
- Tələbələrin asudə vaxtını səmərəli keçirməsi üçün müvafiq infrastrukturun yaradılması
- Universitet nəzdində turizm təyinatlı müəssisələrin, o cümlədən hotel və səyahət agentliyinin yaradılması

**Uğurun göstəricisi:**

- Zəruri infrastruktur
- Sahibkarlıq fəaliyyəti

## MƏQSƏD 6. Elmi-tədqiqat və innovasiya potensialının gücləndirilməsi

**Niyyət –** Universitetdə tədrisin keyfiyyətinin yüksəldilməsi elmi-tədqiqat prosesindən müstəqil şəkildə təsəvvür edilə bilməz. Elmi-tədqiqat fəaliyyəti sənaye təcrübəsi ilə birlikdə təhsilin məzmununa təsir edən başlıca amildir. Bu sahədə mövcud olan boşluqlar universitetin fəaliyyətinin bütün tərəflərinə bu və ya digər dərəcədə mənfi təsir göstərir. Elmi-tədqiqat və innovasiya mədəniyyətinin möhkəmləndirilməsi təkcə akademik heyət üzvlərinin və tələbələrin intellektual inkişafına deyil, həm də universitetin müxtəlif elm sahələri üzrə ictimai siyasətə sübut-əsaslı dəstək göstərməsi və universitetin beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılmasına müsbət təsir edə bilər.

**Strategiyalar:**

- Elmi-tədqiqat fəaliyyətinin institusional inkişafının təmin edilməsi məqsədilə universitetin nəzdində interdisiplinar elmi-tədqiqat mərkəzinin (institutunun) yaradılması
- Tədqiqat və innovasiyalar sahəsində universitetin uzunmüddətli inkişaf strategiyasının hazırlanması
- Prioritet istiqamətlər üzrə praktiki əhəmiyyətli tədqiqatların aparılması üçün maliyyələşmənin təmin edilməsi
- Sifariş əsasında müxtəlif təşkilatlar, o cümlədən, dövlət qurumları, şirkətlər, beynəlxalq təşkilatlar və qeyri-kommersiya təşkilatları üçün tədqiqatların aparılması
- Doktorantura səviyyəsində həyata keçirilən proqramların məzmunun təkmilləşdirilməsi
- Magistratura səviyyəsində beynəlxalq müştərək proqramların yaradılması
- Doktorantura və magistratura tələbələrinin praktik əhəmiyyətli elmi-tədqiqat fəaliyyətinə cəlb olunması, o cümlədən dissertasiya mövzularının aktuallığının təmin olunması

- ATMU elmi-tədqiqat jurnalının beynəlxalq elmmetrik bazalara daxil edilməsi
- “Web of Science” və “Scopus” bazalarında indeksləşən jurnallarda akademik heyət üzvlərinin dərc olunan məqalələrinin sayının artırılması (o cümlədən, ATMU əməkdaşlarının beynəlxalq və yerli tərəfdaş universitetlərin tədqiqatçıları ilə birgə araşdırmalarının təşviq olunması)

**Uğurun göstəricisi:**

- “Web of Science” və “Scopus” bazalarında indeksləşən jurnallarda əsərləri dərc olunmuş heyət üzvlərinin sayı/ dərc olunan məqalə sayı
- Elmi dərəcəsi və elmi adı olan heyət üzvlərinin sayı
- Beynəlxalq tədqiqat layihələrində tədqiqatçı qismində iştirak edən heyət üzvlərinin sayı

## MƏQSƏD 7. Rəqəmsal transformasiya

**Niyyət –** Rəqəmsal dəyişiklik təhsil müəssisəsinin fəaliyyətinin bütün aspektlərini yenidən gözdən keçirməyi tələb edir. Hədəf davamlı öyrənmə və inkişafa maraq göstərən, yeni texnologiya və üsullarla işləməyi bacaran heyətin formalaşması və innovasiya mühitinin yaradılmasıdır. Müasir dünyada təhsil müəssisəsindən əsas gözlənti dəyişikliyin lokomotivinə çevrilməsidir və rəqəmsal transformasiya bu mənada təhsil müəssisəsində menecment üsullarından kommunikasiya formalarınadək, məlumat əldə edilməsi yollarından təhlil texnikalarınadək, təlim prosesinin təşkilindən onun səmərəliliyinin ölçülməsinədək bir çox məcrada keyfiyyət dəyişikliyini tələb edir. Təhsil bazarında rəqabət üstünlüyü qazanmaq üçün rəqəmsallaşma imkan olaraq sürətlə dəyərləndirilməlidir, əks halda o müəssisənin gələcəyi üçün təhdidə çevrilə bilər. Pandemiyanın təhsil icması üçün yaratdığı çətinliklər rəqəmsallaşmanın yaratdığı fürsətlər və təhlükələr arasındakı dinamikanı aydın göstərdi.

**Strategiyalar:**

- ATMU-nun daxili idarəetmə proseslərinin rəqəmsallaşdırılması, o cümlədən:
  - Elektron sənəd dövriyyəsi, kargüzarlıq və arxiv işinin səmərəli təşkili (o cümlədən, vaxtı bitmiş sənədlərin uzunmüddətli saxlanılması) məqsədilə sənədlərin elektron idarəedilməsi sisteminin tətbiq olunması
  - İnsan resursları şöbəsinin işinin optimallaşdırılması və insan resurslarının sistemli idarəolunması məqsədilə vahid elektron platformadan istifadə edilməsi
  - Keyfiyyət idarəetmə sisteminin tərkib hissəsi olaraq datanın sistemli toplanması, təhlili və proqnozlaşdırmanı həyata keçirməyə imkan verən proqram təminatının tətbiqi
  - ATMU-nun vebsaytının məzmun və strukturunun maraqlı tərəflərin ehtiyaclarına uyğun olaraq yenilənməsi

- Elektron tədris sistemindən istifadə olunaraq (o cümlədən, platformaya yeni modulların əlavə olunması yolu ilə) tədris proseslərinin avtomatlaşdırılması
- Qiymətləndirmə prosesinin təşkilinin, nəticələrin təhlilinin rəqəmsallaşdırılması
- Bulud texnologiyaları sistemindən istifadə olunmaqla xidmətlərin rəqəmsallaşdırılması

– Heyət üzvlərin və tələbələrin rəqəmsal səriştələrinin inkişaf etdirilməsi

**Uğurun göstəricisi:**

– Universitetdə göstərilən xidmətlərin elektronlaşma faizi
– Müvafiq rəqəmsal səriştələrə malik heyət üzvlərinin sayı
– Müvafiq ixtisas proqramlarında əksini tapmış rəqəmsal səriştələr (mənimsəmə nəticələri əsasında)

## MƏQSƏD 8. Ali təhsilin beynəlmiləlləşməsi

**Niyyət –** Ali təhsil müəssisənin davamlı təkmilləşməsi, sürətlə yenilənən biliyə əlçatanlığının təmin edilməsi, beynəlxalq təcrübənin və nou-haunun ölkəmizə gətirilməsi, nəhayət, beynəlxalq səviyyədə biliyin yaradılması prosesində iştirak etməsi üçün çoxtərəfli beynəlmiləlləşmə siyasətinin formalaşdırılması və izlənilməsi qaçılmaz şərtdir. Beynəlmiləlləşmə strategiyasının əsas hədəfi universitetimizin Avropa Ali Təhsil Məkanına (AATM) inteqrasiyasıdır. Yalnız aydın müəyyən olunmuş strategiya vasitəsilə təhsil, tədqiqat və təcrübə sahəsində mövcud beynəlxalq imkanlardan optimal şəkildə yararlanmaq mümkündür.

**Strategiyalar:**

– Təhsilin məzmununun beynəlxalq ali təhsil sisteminin tələbləri və standartlarına uyğun şəkildə təkmilləşdirilməsi
– ATMU-da əcnəbi tələbələr üçün əlverişli təhsil imkanlarının yaradılması
– Beynəlxalq, xüsusilə, Avropa İttifaqı təsisatları tərəfindən maliyyələşdirilən təhsil və tədqiqat layihələrində ATMU akademik heyət üzvləri və tələbələrinin iştirakının təmin edilməsi
– Beynəlxalq tərəfdaş universitetlərlə həyata keçirilən akademik heyət və tələbə mübadilə imkanlarının genişləndirilməsi
– Beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən ikili diplom proqramlarının sayının artırılması
– Əcnəbi professor-müəllim heyətinin universitetə cəlb olunması
– Beynəlxalq tərəfdaş müəssisələrlə elmi-tədqiqat sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsi
– Beynəlxalq səviyyədə tanınan mütəxəssislərin qatıldığı elmi-tədqiqat tədbirlərinin təşkili
– Universitetin ali təhsil müəssisələrinin beynəlxalq reytinq sistemlərində təmsil olunması
– Turizm təhsili sahəsində regionun ali təhsil müəssisələrinin çoxtərəfli əməkdaşlıq platformasının yaradılması
– Təhsil proqramlarının beynəlxalq akkreditasiyası

- Əcnəbi tələbələrin ATMU-ya cəlb olunması sahəsində siyasətin formalaşdırılması və tətbiqi
- Azərbaycan Turizm Bürosu və digər müvafiq tərəfdaşlar vasitəsilə ATMU-nun təhsil xidmətlərinin xarici ölkələrdə marketinqi

**Uğurun göstəricisi:**

- İkili diplom proqramlarının sayı (fərqli ixtisaslar nəzərə alınmaqla) /bu proqramlarda təhsil alan tələbələrin sayı
- Mübadilə proqramlarında iştirak edən heyət üzvlərinin/tələbələrin sayı
- ATMU-da təhsil alan əcnəbi tələbələrin sayı
- ATMU-nun beynəlxalq reytinq sistemlərində yeri
- Beynəlxalq akkreditasiyadan keçmiş təhsil proqramlarının sayı

## MƏQSƏD 9. Ömürboyu təhsil prinsipi əsasında universitetin təhsil xidmətlərinin diversifikasiyası

**Niyyət –** Vətəndaşların fasiləsiz təhsil almaq hüququnun təmin edilməsi ilə yanaşı, universitetimiz həm də insanlarımızın intellektual və peşəkar hazırlıq səviyyəsinin davamlı inkişaf etdirilməsi, əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq yeni səriştələr əldə etməsi, yaş qrupundan asılı olmayaraq ölkənin iqtisadi həyatında məhsuldar fərdlər kimi iştirak etməsi üçün təhsil imkanları yaratmalıdır. Formal təhsillə yanaşı qeyri-formal və informal təhsil formaları vasitəsilə müxtəlif kursların, təlim proqramlarının təşkili universitetin təhsil missiyasına töhfə verməklə yanaşı onun nüfuzunun artırılmasına və maliyyə dayanıqlılığının möhkəmləndirilməsinə xidmət edə bilər.

**Strategiyalar:**

- ATMU-da əlavə təhsilin ayrı-ayrı istiqamətləri üzrə xidmətlərin göstərilməsi və marketinqinin aparılması
- ATMU-da ömürboyu təhsil konsepsiyasının heyata keçirilməsi istiqamətində məlumatlandırırıcı tədbirlərin h\yata keçirilməsi
- Beynəlxalq sertifikasiya orqanları və digər əlaqədar tərəfdaşlarla əməkdaşlıq çərçivəsində təlim proqramlarının yaradılması
- Yeni peşələrin öyrədilməsi istiqamətində tədris və təlim proqramlarının hazırlanması
- Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması prosesinin təkmilləşdirilməsi

**Uğurun göstəricisi:**

- Təhsil xidmətləri portfoliosu
- Universitetdə təhsil alan əcnəbi tələbə sayı

## MƏQSƏD 10. Uzunmüddətli maliyyə dayanıqlılığının möhkəmləndirilməsi

**Niyyət –** Universitetin uzunmüddətli inkişafı, o cümlədən strategiyada nəzərdə tutulmuş fəaliyyətlərin icrası üçün mövcud gəlirlərinin diversifikasiyası və xərclərin optimallaşdırılması tələb olunur. Yerli təhsil bazarında rəqabət mühitinin sürətlə artması şəraitində maliyyə imkanları üzərində rəqabət genişlənir. Universitet rəhbərliyi bu istiqamətdə vaxtında, mövcud risk və imkanların düzgün qiymətləndirilməsi yolu ilə aydın və icrası mümkün olan maliyyələşmə siyasəti izləməlidir.

**Strategiyalar:**

- Maliyyə mənbələrinin diversifikasiyası ilə əlaqədar uzunmüddətli strategiyanın hazırlanması, o cümlədən fandreyzinq siyasətinin formalaşdırılması
- Büdcələşmə prosesinin strateji planlaşdırma ilə əlaqələndirilməsi, büdcə planlaşdırılması prosesində struktur bölmələrin iştirakının və bu prosesin şəffaflığının təmin edilməsi (o cümlədən, tələbə qəbulu planları hazırlanarkən mövcud tələb, ixtisasların cəlbediciliyi nəzərə alınmaqla düzgün büdcə proqnozlaşdırılmasının həyata keçirilməsi)
- Akademik və inzibati heyətin əmək haqlarının davamlı artım dinamikasına nail olunması
- ATMU-nun İanə Fondunun (və ya Dəstək Fondunun) yaradılması
- Büdcədənkənar gəlirlərin şəffaf idarəedilməsi sisteminin yaradılması
- Həmkarlar İttifaqı üçün toplanmış vəsaitin səmərəli idarəedilməsi ilə əlaqədar siyasətin formalaşdırılması

**Uğurun göstəricisi:**

- Gəlirlərin/maliyyə mənbələrinin artım dinamikası
- Maliyyə idarəetmə sistemi

## MƏQSƏD 11. Universitetin ortaq vizyona və dəyərlərə əsaslanan brendinin yaradılması

**Niyyət –** İstənilən brendinq fəaliyyətinin bünövrəsində göstərilən xidmətin keyfiyyəti və müştəri yönümlülüyü dayanır. Yalnız bu şərtlər təmin edilərsə effektiv brend yaradıla və univerisetinin inkişafına davamlı dəyər qata bilər. Təhsil bazarında ATMU-nun təhsil və digər sahələrdə göstərdiyi xidmətlərinin rəqibləri ilə müqayisədə cəlbediciliyinin aydın kommunikasiyasına ehtiyac vardır. Səmərəli brendinq və marketinq fəaliyyətləri vasitəsilə universitetin müasir təhsil müəssisəsi kimi rebrendinqi həyata keçirilməli, göstərilən xidmətlərin yaratdığı dəyər fərqi hədəf auditoriyaya aydın kommunikasiya edilməli və yeni brend ətrafında icmalaşma və şəbəkələşmə imkanları dəyərləndirilməlidir.

**Strategiyalar:**

- Universitetin uzunmüddətli niyyətinin əsasında brendləşməsinin həyata keçirilməsi
- Səmərəli/sistemli marketinq siyasəti/planı və mexanizmlərinin formalaşdırılması
- Ortaq təcrübələrin formalaşması üçün müxtəlif rəsmi və qeyri-rəsmi fəaliyyətlər vasitəsilə tələbə, əməkdaşlar və akademik heyətin bir araya gətirilməsi, onlara sosiallaşma imkanı verilməsi

**Uğurun göstəricisi:**

- Rebrendinq
- Marketinq tədbirləri

## MƏQSƏD 12. Maraqlı tərəflərlə məhsuldar əməkdaşlıqların qurulması

**Niyyət –** Maraqlı tərəflərlə əməkdaşlığın əsas qayəsi onların universitetin siyasətinin müəyyən olunması, təhsil və tədqiqat fəaliyyətlərinin təkmilləşdirilməsi və universitetin tanıdılmasına töhfə vermələrini təşviq etməkdir. Maraqlı tərəflər qərarların verilməsi prosesində iştirak edərək və bu prosesə ictimai nəzarəti həyata keçirərək universitetin uzunmüddətli inkişafına istiqamət verirlər.

**Strategiyalar:**

- Təhsil, tədqiqat və keyfiyyət təminatı prosesində sənaye ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi, o cümlədən:
  - Tədris prosesinin müəyyən hissəsinin müvafiq sahədə ixtisaslaşmış şirkətlərdə (praktiki səriştələri aşılayan sessiyalar şəklində) təşkili
  - Nüfuzlu mütəxəssislərin, sənaye nümayəndələrinin təhsil proqramlarının və tədris prosesinin təkmilləşdirilməsi prosesində iştirakı və qonaq məruzəçi qismində tədris prosesinə cəlb olunması
  - Tərəfdaş müəssisələrdə istehsalat təcrübəsi proqramlarının məzmunun təkmilləşdirilməsi və mentorluq ənənəsinin formalaşdırılması
  - Dövlətin və sənayenin ehtiyacları nəzərə alınaraq birgə tədqiqat layihələrinin həyata keçirilməsi

- Universitetin məzunlarla əlaqələrinin gücləndirilməsi, o cümlədən:
  - Məzunların məşğulluq dinamikasının mütəmadi olaraq izlənilməsi, təhlili və onların məşğulluq imkanlarının artırılması
  - Məzunların ATMU-nun universitet kimi cəlbediciliyinin artırılması, o cümlədən fandreyzinq, sənaye ilə əməkdaşlığın qurulması və mentorluq fəaliyyətlərinin təşkilində fəal iştirakçılığının təşviqi

- Məzun şəbəkəsinin (rəsmi olaraq ATMU Məzunları Assosiasiyası) yaradılması və mütəmadi olaraq tədbirlərin təşkili

**Uğurun göstəricisi:**

- İşəgötürənlərlə/sənaye ilə birgə proqramlar
- Sifariş əsasında tədqiqat məzmunlu və digər layihələr
- Məzunların məşğulluq dinamikası
- Məzun şəbəkəsi